


# Güclü dövlətin beynəlxalq nüfuzu da yüksək olur

## Prezident İlham Əliyevin tarixinin ən qüdrətli mərhələsinə yüksəltdiyi Azərbaycan ehtiram və etimad göstərilən dövlətlərdəndir

**Azərbaycan deyəndə yalnız inkişaf yolunda sürətli irəliləyən ölkə deyil, həm də Cənubi Qafqazda lider, dünyada isə söz sahibi olan dövlət kimi tanınması beynəlxalq birlikdə qəbul edilən həqiqətdir. Dünyada Azərbaycan deyəndə həm də Prezident İlham Əliyevin Müzəffər Ali Baş Komandanlığı ilə müharibədə qalib gələn, torpaqlarını döyüş yolu ilə azad edən, ərazisində separatizmin kökünü kəsən güclü dövlət yada düşür.**

### Qlobal proseslərin fəal iştirakçısı

Əlbəttə, Azərbaycanı dünyaya qüdrətli dövlət kimi təqdim edən amillərin əhatə dairəsi yuxarıda qeyd olunanlarla bitmir və daha genişdir. Azərbaycanı həm də Avropanın enerji təhlükəsizliyinin əsas təminatçılarından olan, qlobal miqyasda humanitar problemlərin həllinə mühüm töhfələr verən ölkə kimi də tanıyırlar. Xüsusən son illərdə Avropanın üzləşdiyi bir sıra çətinliklər, Rusiya və Ukrayna arasındakı müharibə Azərbaycanın enerji siyasətinin nə qədər mükəmməl olduğunu göstərir. Cənubi Qafqazdan Avropaya qədər uzanan "Cənub qaz dəhlizi" kimi bir mürəkkəb layihənin reallaşdırılması Azərbaycanın enerji siyasətinin təntənəsi olmaqla yanaşı, həm respublikamızın qlobal mövqelərini, həm də enerji təhlükəsizliyi ilə bağlı dialoqda yerini daha da möhkəmləndirdi.

Azərbaycan həm də dünyada sülhün və təhlükəsizliyin təmin olunmasına layiqli töhfələr verən, sivilizasiyalar və mədəniyyətlərarası dialoqu təşviq edən dövlətdir. Rəsmi Bakı konfliktlərin, qarşıdurmaların, gərginliklərin aradan qaldırılmasında fəal rol oynayır, barışdırıcı missiya həyata keçirir. Başqa cür desək, orta gücə çevrilən Azərbaycan bu gün yalnız regionda deyil, qlobal müstəvidə baş verən proseslərdə, dünyada narahatlıq yaradan aktual məsələlərin həllində fəal iştirak edir. Ölkəmizin beynəlxalq tədbirlərin keçirildiyi əsas mərkəzlərdən birinə çevrilməsi bununla bağlıdır.

Azərbaycan həm də beynəlxalq nəqliyyat dəhlizlərində fəal iştirak edən dövlətdir. Nəqliyyat dəhlizlərinin siyasi və iqtisadi münasibətlərdəki rolunu düzgün qiymətləndirən Prezident İlham Əliyevin bu sahədə yürütdüyü siyasətin nəticəsidir ki, Şimaldan Cənuba, Şərqdən Qərbə və əks istiqamətlərdə ən etibarlı, təhlükəsiz və sürətli nəqliyyat dəhlizləri məhz Azərbaycandan keçir. Təsadüfi deyil ki, bu istiqamətdə həyata keçirilən nəhəng layihələr Azərbaycanı nəqliyyat dəhlizlərinin əsas söz sahibi olan iştirakçılarından biri kimi təqdim edir.

### Öz maraqlarını qətiyyətlə təmin edən dövlət

Beynəlxalq münasibətlər sistemində hər bir dövlətin mövqeyi həm də onun yürütdüyü siyasətin məzmunu və mahiyyəti ilə ölçülür. Müstəqil siyasət yürüdə bilməyən, özünün mövqeyi ilə tanınmayan dövlətin qlobal səviyyədə ehtiram sahibi ola bilməməsi məlum məsələdir. Çox uzağa getmədən Ermənistanın timsalında müstəqil siyasəti olmayan dövlətin konkret nümunəsini göstərmək olar. Hansı ki belə dövlətlərin beynəlxalq münasibətlərdəki yeri müxtəlif güclər üçün hərbi-siyasi forpost və ya plasdarm olmaqdan o yana keçmir. Bu gün Ermənistanın Qərbin əlində alət rolunu oynaması, xarici siyasi dairələrdən aldığı direktivlər əsasında siyasət yürütməsi və qarşıdurma meydanına çevrilməsi bunu təsdiq edir. Belə dövlət heç vaxt özünün mənafelərini təmin edə bilməz.

Azərbaycan isə müstəqil siyasəti, hər bir məsələdə məhz öz mövqeyi olan dövlətdir. Xəzərin karbohidrogen ehtiyatlarının tarixdə ilk dəfə olaraq alternativ marşrutlarla dünya bazarlarına çıxarması, torpaqlarımızın işğaldan azad edilməsi, ölkəmizin hər zaman beynəlxalq təzyiqləri qətiyyətlə dəf etməsi həm də Azərbaycanın müstəqil və qətiyyətli siyasətindən xəbər verir. Azərbaycan eyni zamanda regionda yeni əməkdaşlıq formatlarının təşəbbüskarı kimi çıxış edir.

Bu siyasətin nəticəsidir ki, Azərbaycan indi dostluq və əməkdaşlıq meydanı kimi tanınır. Prezident İlham Əliyevin Çinin CGTN telekanalına müsahibəsində qeyd etdiyi kimi, bizim dostluğa, əməkdaşlığa, heç bir ölkənin daxili işlərinə qarışmamağa əsaslanan siyasətimiz həqiqətən də beynəlxalq arenada dəstəklənir. Azərbaycanın dünyanın müxtəlif siyasi qütblərində dayanan dövlətlərlə faydalı əməkdaşlığı, o cümlədən Çin Xalq Respublikası, Avropa İttifaqının üzvləri ilə strateji tərəfdaşlığa əsaslanan münasibətləri respublikamızın beynəlxalq münasibətlər sistemində həyata keçirdiyi fəal siyasətdən və etibarlı tərəfdaş kimi tanınmasından xəbər verir.

### Azərbaycan Prezidenti dünyanın nüfuzlu dövlət başçıları ilə bir sırada dayanır

Bütövlükdə beynəlxalq münasibətlər sistemində dövlətlərin yerini və rolunu müəyyən edən amillər də ilk növbədə onun qazandığı uğurlardır. Bu baxımdan Prezident İlham Əliyevin rəhbərliyi ilə tarixinin ən qüdrətli mərhələsinə qədəm qoyan Azərbaycanın dünyada ehtiram və etimad göstərilən dövlət olmasının da təməlində məhz bu kimi amillər dayanır. Güclü, öz milli maraqlarını təmin etməyi bacaran bir dövlətin qlobal nüfuzu da yüksək olur.

Bütün bunları təmin edən Prezident İlham Əliyev isə dünyanın nüfuzlu dövlət başçıları ilə bir sırada dayanır. Əlamətdar günlərdə beynəlxalq münasibətlərdə xüsusi çəkisi olan dövlətlərin rəhbərlərinin Prezident İlham Əliyevə ünvanladıqları məktubların məzmunu da dövlətimizin başçısına olan ehtiramdan xəbər verir. Prezident İlham Əliyevə olan yüksək beynəlxalq ehtiram, həm də Azərbaycana göstərilən etimaddır.

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyətli və müdrik siyasətinin nəticəsi olaraq dövlətimizin qazandığı hər bir nailiyyət həm də müasir Azərbaycanın qurucusu və memarı, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin əbədiyaşar ideyalarının təntənəsi, real həyata keçməsi deməkdir. Ulu Öndər Heydər Əliyev Azərbaycanı hər zaman zirvələrdə görməyi arzulayırdı, Qarabağı azad görmək, məcburi köçkünlərin doğma yurdlarına dönmələrini istəyirdi. Prezident İlham Əliyev bunları həyata keçirməklə, həm də xalqımızın Ulu Öndəri Heydər Əliyevin arzularını layiqincə yerinə yetirir.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

Azərbaycan.- 2025.- 27 fevral (№ 44).- S.8.